Vergilər nazirinin "17" fevral 2015-ci il tarixli 1517040100185500 nömrəli əmri ilə təsdiq olunmuşdur.

# Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzində seçkili vəzifələrin tutulması

# Q A Y D A L A R I

## I. Ümumi müddəalar

1. Bu Qaydalar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 5 iyun tarixli 90 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin Əsasnaməsi"nə uyğun olaraq hazırlanmış və Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzində (bundan sonra - Mərkəz) seçkili vəzifələrə namizədlərin müsabiqəsinin keçirilməsi qaydalarını müəyyən edir.

2. Mərkəzin İqtisadiyyat və menecment kafedrasında, Vergi metodologiyası kafedrasında, Vergi qanunvericiliyi və təsərrüfat hüququ kafedrasında və Elmi-tədqiqat bölməsində olan aşağıdakı vəzifələr seçkili vəzifələr sayılır:

- kafedra müdiri və elmi-tədqiqat bölməsinin rəisi (bundan sonra – struktur vahidin rəhbəri);
- kafedranın dosenti, baş müəllimi və müəllimi (bundan sonra – əməkdaşlar);
- elmi-tədqiqat bölməsinin baş elmi işçisi və elmi işçisi (bundan sonra - əməkdaşlar).

3. Bu vəzifələr bir qayda olaraq müsabiqə yolu ilə 5 il müddətinə tutulur. Mərkəz və onun struktur vahidləri yenidən təşkil edildikdə, yüksək ixtisaslı mütəxəssisləri işə cəlb etmək zərurəti yarandıqda və digər müstəsna hallarda ayrı-ayrı şəxslər həmin vəzifələrə sonradan müsabiqədən keçməklə (bir ildən çox olmamaq şərti ilə) Azərbaycan Respublikası Vergilər Nazirliyinin (bundan sonra – nazirlik) əmri ilə təyin oluna bilərlər.

4. Müsabiqədə vəzifə təlimatları ilə müəyyən edilən tələblərə cavab verən şəxslər iştirak edə bilərlər. Müsabiqə zamanı yüksək peşə-ixtisas hazırlığına, vergi xidmətində, eləcə də elmi-pedaqoji sahədə iş təcrübəsinə, yüksək mənəvi keyfiyyətlərə, müvafiq elmi ad və dərəcələrə, elmi və tədris-metodiki əsərlərə malik olan şəxslərə üstünlük verilir.

## II. Seçkili vəzifələrin tutulmasına ümumi tələblər

5. Seçki müddəti və ya təyinatla müəyyən edilən müddət başa çatdıqda müsabiqə elan olunur. Zərurət yarandıqda Mərkəzdə vakant seçkili vəzifələrin tutulması üçün də müsabiqə elan olunur.

6. Struktur vahidin rəhbərinin fəaliyyətinə hər hansı səbəbdən seçildiyi müddət başa çatandan əvvəl xitam verildikdə, Mərkəzin rəisinin təqdimatına əsasən vergilər nazirinin əmri ilə həmin vəzifənin icrası struktur vahidin əməkdaşlarından birinə həvalə olunur və bir aydan gec olmayaraq müsabiqə elan olunur.

7. Mərkəzin seçkili vəzifələrinin tutulması üçün seçkilər Mərkəzin Elmi Şurasında keçirilir.

8. Hamiləlik dövründə və doğuşdan sonrakı dövrdə, həmçinin 3 yaşına kimi körpə uşağı olan qadınların məzuniyyətdə olduqları müddətdə onların tutduqları vəzifələrə müsabiqə elan olunmur.

9. Müsabiqə haqqında bu Qaydalara uyğun olaraq dövri mətbuatda və ya digər kütləvi informasiya vasitələrində elan verilir.

## III. Seçkili vəzifələrin tutulması qaydası

10. Seçkili vəzifəyə seçilmək üçün Mərkəzin Elmi Şurasında (gizli səsvermədən əvvəl) müsabiqədə iştirak edən hər bir namizədin peşə-ixtisas hazırlığı haqqında məlumat dinlənilir.

11. Müsabiqədə iştirak edənlərin adı və soyadı eyni səsvermə bülleteninə daxil edilir.

12. Namizədin lehinə münasibət bülletendə müvafiq adın və soyadın saxlanılması, əleyhinə münasibət isə müvafiq adın və soyadın pozulması ilə bildirilir. Hər bir seçici yalnız bir namizədə səs verə bilər. Bülletendə iki və daha çox namizədin adı və soyadı pozulmamış qaldıqda bülleten etibarsız sayılır.

13. Mərkəzin Elmi Şurası səsvermənin nəticəsini hesablamaq üçün səsvermədən əvvəl 2-3 nəfərdən ibarət olmaqla hesablama komissiyasını seçir. Hesablama komissiyası hər bir namizəd üçün səsvermənin nəticəsini ayrılıqda elan edir və səsvermənin protokolu Elmi Şura tərəfindən mövcud qayda üzrə təsdiq olunub müsabiqə sənədlərinə əlavə edilir. Elmi Şuranın qərarı vergilər nazirinin əmri ilə təsdiq olunur.

14. Mərkəzin Elmi Şurasının üzvlərinin ən azı 2/3 hissəsinin iştirak etdiyi iclas səlahiyyətli sayılır. Səsvermədə iştirak edən Elmi Şura üzvlərinin səslərinin 50 faizdən çoxunu toplayan namizəd bu vəzifəyə seçilmiş hesab olunur. Namizədlərin heç biri 50 faizdən çox səs toplamadıqda daha çox səs yığmış iki (səsvermədə iki namizəd iştirak etdikdə isə bir) namizəd həmin iclasda təkrar səsverməyə buraxılır.

15. Elmi Şuranın iclaslarında seçki ilə bağlı keçirilən müzakirələrdə bütün namizədlərin iştirak etmək hüququ vardır.

16. Müsabiqədə iştirak etmək üçün ərizə verilmədikdə, yaxud səsvermə nəticəsində heç bir namizəd seçilmədikdə, müsabiqə baş tutmamış hesab olunur. Bu vəzifələrin tutulması üçün yenidən müsabiqə elan olunarsa, əvvəlki namizədlər də həmin müsabiqədə iştirak edə bilərlər.

17. Seçkilər müsabiqə elan olunan gündən ən geci 3 (üç) ay müddətində başa çatdırılmalıdır.

18. Müsabiqə ilə əlaqədar şikayətlər elanın dərc olunduğu gündən başlayaraq seçkilərdən ən geci 15 gün keçənədək Mərkəzin rəhbərliyinə və ya Nazirliyə verilə bilər.

19. Bu Qaydaların hər hansı bəndinin tələbləri pozularsa, Mərkəzin rəisinin təqdimatına əsasən vergilər naziri müsabiqəni və seçkilərin nəticələrini ləğv edə bilər.

## IV. Müsabiqədə iştirak üçün sənədlərin verilməsi qaydası

20. Seçkili vəzifələrin tutulması üçün müsabiqə Mərkəzin rəisinin təqdimatına əsasən vergilər nazirinin əmri ilə elan edilə bilər.

21. Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan verildiyi tarixdən başlayaraq 30 gündür.

22. Müsabiqədə iştirak etmək istəyən şəxs Mərkəzin rəisinin adına ərizə ilə birlikdə aşağıdakı sənədləri təqdim etməlidir:

- kadrların şəxsi uçot vərəqəsi;
- tərcümeyi-hal;
- ali təhsil, elmi ad və elmi dərəcə haqqında sənədlərin təsdiq olunmuş surəti;
- dərc olunmuş elmi-metodiki əsərlərin təsdiq edilmiş siyahısı.

Mərkəzin işçiləri müsabiqədə iştirak etdikdə yalnız Mərkəzin rəisinin adına ərizə və elmi-metodiki əsərlərin təsdiq edilmiş siyahısı təqdim edilir.

Müsabiqədə iştirak haqqında ərizənin qəbulundan imtina edilməsi yalnız namizədin təqdim etdiyi sənədlərin müsabiqə üçün verilən elanın şərtlərinə uyğun gəlmədiyi və ya ərizənin verilməsi üçün müəyyən edilmiş müddətin gözlənilmədiyi hallarda ola bilər.

23. Sənədlər əvvəlcə Mərkəzin müvafiq struktur vahidinin iclasında müzakirə olunur. Struktur vahid hər bir iddiaçının namizədliyini obyektiv surətdə qiymətləndirərək səsvermə yolu ilə müvafiq qərar qəbul edir. Qərarlar sadə səs çoxluğu ilə qəbul olunur. Kafedra əməkdaşlarının 2/3 hissəsinin iştirak etdiyi iclas səlahiyyətli sayılır. Struktur vahidin hər bir namizəd barədə qərarı Mərkəzin Elmi Şurasına təqdim edilir. Müsabiqədə iştirak edən namizədlər struktur vahidin seçki ilə bağlı iclasında iştirak edə, yaxud onun qərarı ilə tanış ola bilərlər.

24. Struktur vahidin seçki ilə bağlı iclasını Mərkəzin rəisi (təhsil və ya elmi-tədqiqat işləri üzrə rəis müavinləri) aparır.

25. Mərkəzin seçkili vəzifələrdə çalışan əməkdaşlarına seçki müddətinin qurtarmasına ən azı 1 ay qalmış bu barədə məlumat verilir.

26. Yeni müddətə vəzifəni tutmaq üçün ərizə verməmiş və ya müsabiqədən keçməmiş struktur vahidlərin rəhbərləri və əməkdaşlar nazir tərəfindən tutduqları vəzifədən azad edilirlər.

27. İki və ya daha çox struktur vahidi birləşdirildikdə, yaxud hər hansı struktur vahidi müstəqil vahidlərə bölündükdə buradakı əməkdaşların seçkisinin əvvəl seçildikləri müddətdən tez keçirilməsinə yol verilmir. Onların seçki

müddətləri struktur bölmələri birləşdirilənədək (yaxud ayrılanadək) keçirilmiş seçki günündən hesablanır.

Struktur vahidlər birləşdirildikdə həmin vahidlərin rəhbərlərindən biri Mərkəzin Elmi Şurasında gizli səsvermə yolu ilə yeni rəhbər seçilir. Bu rəhbərin seçki müddəti struktur vahidlər birləşdirilənədək həmin şəxs üçün keçirilmiş seçki günündən hesablanır.

Hər hansı struktur vahid bir neçə struktur vahidinə ayrıldıqda yeni yaradılmış struktur vahidlərdən birinə əvvəlki struktur vahidin rəhbəri seçildiyi müddət qurtarana kimi rəhbərlik edir. Digər struktur vahidlərin rəhbəri vəzifəsi isə müsabiqə yolu ilə tutulur.

Struktur vahidin adı dəyişdirildiyi halda struktur vahidin rəhbəri və digər əməkdaşlar seçki müddəti qurtarana kimi öz vəzifələrini icra edirlər.

* * *